

# Musiqi təhsili sistemində ibtidai musiqi məktəblərinin rolu

*Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin formalaşmasında musiqi mədəniyyətimizin rolu əvəzsizdir. Minilliklər boyu tarixin keşməkeşlərindən süzülüb qan yaddaşımızda hifz olunaraq müasir dövrümüzə qədər gələn xalq musiqimiz və çox da uzun bir tarixə sahib olmayan professional musiqimiz bu gün bədii-estetik səviyyəmizi formalaşdırır.*

İndi musiqimizə daha ağılla və daha çox vətəndaşlıq hissi ilə yanaşmalı və bununla milli musiqimizin saflığını, təmizliyini qorumaqla, deməli, onun həm də varisliyini qorumuş oluruq. Və bu müqəddəs işdə musiqimizin tədrisi ən başlıca rol oynamalıdır.Bu yazımızda da Azərbaycanda musiqi tədrisinin dününə və bu gününə işıq salmaq, bu sahədə olan uğurları və nöqsanları araşdırmaq, musiqi təhsili müəssisələrinin indiki mövcud vəziyyətini qələmə almaq niyyətindəyik. Fikrimizcə, hər hansı bir uğur, əlbəttə ki, həmin sahədəki nöqsanların araşdırılıb aradan qaldırılmasından sonra gəlir.

Cəmiyyətin musiqi mədəniyyətinə musiqi təbliğatı, elmi təbliğat və musiqi kadrlarının hazırlanması daxildir (1, s.97). Bu məsələlərin hər biri özü-özlüyündə çox böyük sahəni əhatə etməklə nailiyyətlər və problemlərlə doludur və bu problemləri araşdırmaq, nöqsanların kökünü və səbəbini taparaq dönüş yaratmaq zamanı çoxdan çatmışdır. Lakin biz bu yazımızda hələlik musiqi kadrlarının hazırlanması problemlərinə toxunacağıq.

Platon iddia edirdi ki, təhsil iki fəndən ibarət olmalıdır: musiqi və gimnastika (2, s.166). Platonun bu iddiasında nə qədər haqlı olub-olmadığını müzakirə etməkdən uzağıq, lakin bu faktdır ki, cəmiyyətin düzgün təməl üzərində inkişafında, şəxsiyyətin kamil şəkildə formalaşmasında musiqinin rolu mühüm və əvəzsizdir. Professor B. Qurbanovun fikrincə isə, "sosioloji tədqiqatlara görə musiqi ilə müntəzəm məşğul olunması şagirdlərdə ritm, temp, simmetriya və proporsiya hisslərinin, onların fantaziyalarının inkişafına müsbət təsir göstərir, dəqiq elmlərə olan meyl və istedadlarını artırır (3, s.159).

Musiqi təhsili musiqi sənəti sahəsində ixtisaslı mütəxəssislər-bəstəkar, musiqişünas, ifaçı (müğənni, çalğıçı, xor və orkestr dirijoru və s.) və müəllimlər hazırlayan təhsil sistemidir.

Musiqi təhsili Qədim Şərq ölkələrində yaranmış, Qədim Yunanıstanda davam etdirilmişdir.

Sovet dövründə Azərbaycanda musiqi təhsili sistemi ibtidai (7 illik) və orta (4 illik) musiqi təhsili verən ixtisas məktəblərindən, 11 illik orta ixtisas (konservatoriya yanında) və 5 illik ali-musiqi məktəblərindən (konservatoriya, musiqi pedaqoji institutu və incəsənət institutu) ibarət olaraq formalaşmışdır (1, s.101).

"Mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunu"nda (1998) milli və dünya mədəniyyət sərvətlərinə qovuşmağa yönəldilən təhsil sisteminin inkişaf etdirilməsi, uşaqların və yeniyetmələrin estetik tərbiyəsinə, mədəni inkişafına qayğı göstərilməsi vacibliyinə toxunularaq dövlət mədəniyyət sisteminin tərkibində təhsil və tədris müəssisələri aşağıdakı şəkildə göstərilir: mədəniyyət profilli ali və orta ixtisas təhsil müəssisələri, ixtisasartırma kursları, uşaq musiqi, incəsənət, rəssamlıq, muğam və xoreoqrafiya məktəbləri.

Elə oradaca göstərilir ki, mədəniyyət sisteminin başlıca vəzifəsi milli mədəniyyət sərvətlərinin etibarlı şəkildə toplanıb qorunaraq gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, Azərbaycan xalqının adət və ənənələrinə bağlı milli, mənəvi və mədəni, bəşəri dəyərlərə yiyələnən, müstəqil və yaradıcı düşünən vətəndaşlar yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir (4).

Yazımızın bu hissəsi 5 illik və ya 7 illik təhsil verən ibtidai musiqi təhsili barəsindədir. "Uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri üçün əsasnamə"də yazılır: "Musiqi məktəbi - uşaqlara musiqi, rəssamlıq və xoreoqrafiya sahəsində ilkin təhsil verir, Azərbaycan xalq, klassik və dünya incəsənətinin ən yaxşı nümunələri əsasında onların estetik zövqünü formalaşdırır;

- uşaqların qabiliyyətinin aşkar olunmasına və onların istedadlarının inkişaf etdirilməsinə şərait yaradır;
- böyüməkdə olan nəslin mənəvi, estetik tərbiyəsini gücləndirmək məqsədilə ümumtəhsil məktəbləri ilə daim təmasda olur;
- ən istedadlı və qabiliyyətli şagirdləri müvafiq ixtisas üzrə tədris müəssisələrinə qəbul üçün hazırlayır" (5, s.4).

Göstərilən vəzifələr müasir Azərbaycan vətəndaşlarının saf, təmiz, əsl vətənpərvər, estetik və etik cəhətdən tam kamil yetişməsi, milli- mənlik şüurun formalaşması, milli əqidənin tərbiyə edilməsi, milli özünüdərk və özünütəsdiq üçün nə qədər əhəmiyyətli və lazımlıdırsa, onların yerinə yetirilməsi və həyata keçirilməsi baxımından bir o qədər də çətindir. Məsələyə bir qədər qlobal və "ayıq başla" yanaşsaq musiqi məktəblərinin üzərinə düşən müqəddəs vəzifənin nə qədər böyuk olması tam aydın olar.

Musiqi məktəblərinin gördüyü işin əhəmiyyəti bir də ona görə böyükdür ki, bu istiqamətdə ən davamlı və planlı təhsil məhz burada verilir. Doğrudur, orta ümumtəhsil məktəblərində də nəğmə və musiqi dərsləri tədris edilir, lakin heç kimə sirr deyil ki, burada işlər heç

də ürəkaçan vəziyyətdə deyil. Ən yaxşı halda şagirdlərə hər hansı bir mahnının sözlərini əzbərlətməklə kifayətlənən nəğmə müəllimləri (əlbəttə, öz işinə vicdanla yanaşan müəllimləri buraya aid etmirik) bununla öz işlərini bitmiş hesab edir, qeyri-ümumtəhsil fənlərindən güclə kafi qiymət alan şagirdlərə ucdantutma əla qiymətlər paylayırlar (hətta bunun əksi də olur, sinifdə musiqi məktəbində oxuyan şagirdlərə nəğmədən kafi, o biri uşaqlara beş yazan müəllimlər də var). Halbuki, uşaqların hər birində potensial olaraq bədii qabiliyyət var, əsas məsələ isə bu qabiliyyəti aşkar etmək və imkan daxilində daha erkən aşkar etməkdir. "Məşhur çex pedaqoqu Frantişek Lısek Brno 6 yaşdan 14 yaşa qədər 3600 uşağın musiqi istedadını yoxlamış və bu qərara gəlmişdir ki, onlardan yalnız 4-ü (0,01%) mahnı oxumağa tamamilə qadir deyildir" (6, s.91). Bu fikirlər çex uşaqlara aiddir, məncə Azərbaycanda canı və qanı musiqi ilə yoğrulmuş hər bir uşaqda musiqi qabiliyyəti var.

Deməli, bugünkü gün ümid ancaq uşaq musiqi məktəblərinədir.

2005-ci ilin 1 yanvarına olan statistik məlumatlara görə həmin dövr üçün respublikada cəmi 236 uşaq, musiqi, incəsənət və rəssamlıq məktəbləri fəaliyyət göstərir ki, onlardan 49-u uşaq incəsənət və rəssamlıq məktəbi, 187-si isə uşaq musiqi məktəbidir. Uşaq musiqi məktəblərində 10978, incəsənət və rəssamlıq məktəblərində 3803 nəfər olmaqla respublika üzrə cəmi 14781 müəllim gənc nəslin bədii və estetik qabiliyyətlərinin inkişafı üçün əmək sərf edir.

Məktəblərdə cəmi 75 minə yaxın şagird musiqinin sirlərini öyrənməklə məşğuldur. Bunlardan 35332 nəfər fortepiano, 31141 nəfər xalq çalğı alətləri, 850 şagird nəfəs və zərb alətləri, 2013 şagird simli və ya yaylı musiqi alətləri, 1572 nəfər muğam, 185 nəfər vokal və s. şöbələrində təhsil alırlar (7). Fikrimizcə, bu rəqəm ümumtəhsil məktəblərində təhsil alan şagird ordusu ilə nisbətdə çox kiçik rəqəmdir, əslində musiqi məktəbləri üçün nəzərdə tutulan mövcud qəbul planı musiqi məktəblərində oxumaq istəyən uşaqların sayı ilə tərs mütənasibdir. Nəticədə hər il neçə-neçə istedadlı uşaq musiqi məktəblərindən kənarda qalır.

Bəs buna mane olan nədir? Niyə qəbul planını artıraraq bütün arzu edənləri (əlbəttə, musiqi qabiliyyəti olanları) məktəblərə cəlb etmək mümkün olmasın? Burada bir çox səbəblər mövcuddur, lakin müşahidəmə və bu sahədəki iş təcrübəmə əsasən, fikrimizcə, səbəblərin ən böyükləri aşağıdakılardır:

1. Ən əsas səbəb məktəb binalarının vəziyyətidir. Buraya binaların təhsilə yararlı olub-olmaması və orada olan sinif otaqlarının mövcud sayı aiddir. Yəni, sinif otaqlarının azlığı məktəblərə əlavə şagird götürmək istəyini xeyli məhdudlaşdırır.

2. Məktəblərin maddi-texniki vəziyyətinin tam qaneedici səviyyədə olmaması.

3. Musiqi alətlərinin tapılmaması və ən əsası bahalığı ucbatından bütün şagirdlərin musiqi alətləri ilə təmin olunmasının valideynlər tərəfindən mümkünsüzlüyü.

4. Daha bir əngəl Maliyyə Nazirliyi və onun yerlərdəki idarələri tərəfindən yaradılır. Son 2-3 il ərzində maliyyəçilər tərəfindən qoyulan embarqonun mahiyyəti budur ki, konkret hər hansı məktəbdə bu tədris ilində oxuyan şagirdlərin sayı keçən tədris ilində həmin məktəbdə oxuyan şagirdlərin sayından artıq olmamalıdır. Əks təqdirdə şagirdlər arasındakı fərq nəticəsində yaranmış dərs saatlarının tarifləşməsi müşkülə çevrilir və ya bu tədris ilində musiqi məktəbi üçün nəzərdə tutulan vəsait keçən ilkindən artıq olmamalıdır. Bunu əyani bir misalla göstərsək belə bir mənzərə alınar: tutaq ki, 120 şagirdi olan musiqi məktəbini bu il 15 şagird bitirmişdir (qəbul edilmiş 25 şagirddən 10-u 5 il ərzində müxtəlif səbəblərdən məktəbi tərk etmişdir). Məktəbdə 105 şagird qalmışdır. Lakin yeni tədris ili üçün 25 nəfər şagird qəbul edəndən sonra məktəbdə şagirdlərin sayı 130-a çatır. Qəbul planını pozmadan 10 nəfər şagirdin artması səbəbini buraxılışla - qəbul arasındakı fərq nəticəsində yarandığını izah etsən də, maliyyəçilər razılaşmırlar.

Şagirdlərin ixtisaslar üzrə bölgüsünə nəzər saldıqda bir sıra maraqlı məqamlar ortaya çıxır. Fortepiano alətinə olan marağın və tələbatın bu qədər yüksək olması nə qədər başa düşüləndirsə, xalq çalğı alətləri şöbəsində birləşən ixtisaslar üzrə (tar, kamança, qarmon, kanon və s.) şagirdlərin azlığı bir o qədər anlaşılan deyil. Fortepiano alətinin elitar təbəqəyə aid musiqi aləti olması fikri nəticəsində bu alətə olan maraq xalq çalğı alətlərinin hesabına başa gəlməməlidir. Bu cəhətdən şəhər məktəbləri ilə kənd məktəbləri arasında kəskin fərq əmələ gəlmiş olur və xalq musiqi alətlərimizə olan münasibət kənd məktəblərində daha yüksəkdir. Lakin 80 kənd musiqi məktəbində il ərzində nəfəs və zərb alətləri şöbəsi altında toplanan xalq musiqi alətlərimizə cəmi 6 nəfər şagird qəbulu ondan xəbər verir ki, yaxın gələcəkdə kəndlərimizdən də zurna- balaban səsi eşidilməz olacaq, əsrlərdən gələn nağara alətimiz sintezator kimi calaq alətin "xidmətilə" yaddaşlardan silinəcək (7).

Bu özlüyündə çox böyük problemdir və inanırıq ki, başdan-başa yeniləşən Mədəniyyət və Turizm Nazirliyində musiqi məktəblərinin qəbul planına yenidən baxılacaq və şagird qəbulu planında hər bir rayonun və regionun öz xüsusiyyətləri bir daha nəzərə alınacaq, orada daha çox sevilən və yayılan alətə üstünlük veriləcək.

Musiqi məktəblərində kamança şöbəsinə qəbul zamanı nə boyda problem yaranması bütün məktəb rəhbərlərinə məlumdur. Bu ixtisas üzrə qəbul olanların çoxunun gələcəkdə skripka alətinə, tarçalanın gitara, fortepiano və qarmon çalanın sintezator alətinə keçmək istəyi bizim hər birimizi dərindən düşündürməlidir. Bu problem ayrıca yazının mövzusudur deyə, ona burada geniş toxunmaq istəməzdik.



Cəmiyyətin orta məktəblərlə müqayisədə musiqi məktəblərinə olan qeyri-həlim və bir qədər də qeyri-ciddi münasibəti dəyişməyincə problemlərin həllindən danışmağa dəyməz. İctimaiyyətdən tutmuş dövlət orqanlarına qədər, valideynlərdən tutmuş uşaqlaracan- hər kəs musiqi məktəblərinə ikinci dərəcəli məktəb gözü ilə baxmamalı, "həm də musiqi alətində çalmağı bacarmalıdır" düşüncəsindən uzaqlaşmalı, övladlarımızın gələcəkdə musiqini özünə sənət və peşə seçmək iddasında olmalıyıq. Halbuki, musiqi məktəbləri nə məktəbəqədər təhsil müəssisələrinə, nə də məktəbdənkənar müəssisələr sırasına aiddir (8, s.487). Deməli, musiqi məktəbləri orta məktəblərlə tam bərabərhüquqludur və bu sahədə heç bir ayrı - seçkilik olmamalıdır.

Son illər musiqi məktəblərinin işində nəzərəçarpan irəliləyişlər olmuşdur. Bu illər ərzində musiqi məktəblərinin tədris planı və əsasnaməsi iki dəfə dəyişdirilmiş, təhsildə müasir şərait nəzərə alınmış, məktəblərə prinsipial sərbəstlik verilmişdir.

Ən böyük dəyişiklik tədris planında Azərbaycan milli musiqisi, milli adət və ənənələri ilə bağlı fənlərin tədrisinin nəzərdə tutulmasıdır. Musiqi məktəbləri üçün Azərbaycan Respublikası Mədəniyyət nazirinin 5 noyabr 1991-ci il tarixli 372 saylı əmrilə təsdiq edilmiş tədris planında Azərbaycan musiqi ədəbiyyatı, Azərbaycan xalq musiqi yaradıcılığı fənləri nəzərdə tutulmuş, əlavə olaraq Azərbaycan xalq musiqisinin ladları fənninin də istəklə seçilən fənn kimi tədrisi tövsiyə edilmişdir. Bundan başqa qarmon aləti üzrə muğam saatları haqlı olaraq bir saatdan iki saata qaldırılmış, lakin bu artım qarmon sinfində not saatlarının azaldılması hesabına başa gəlmişdir (9, s.1).

Azərbaycan xalq musiqisinin ladları fənninin istəklə seçilən fənn kimi bütün musiqi məktəblərində tədris olunması bir qədər şübhə doğurur, sonuncu sinifdə isə onun tədrisi lazımi effekti vermir. Fikrimizcə, bu məsələnin vacibliyi xüsusi olaraq qabardılmalı və Azərbaycan xalq musiqisinin ladlarının yuxarı siniflərin birində (Azərbaycan xalq musiqi yaradıcılığı fənni kimi) ayrıca fənn kimi tədris olunması məsələsi əlaqədar təşkilatlar tərəfindən həll edilməlidir. Halbuki, bu fənnin tədrisinin vacibliyini böyük Ü.Hacıbəyov hələ 1924-1925-ci illərdə hiss etmiş və onun musiqi məktəblərinin tədris planına salınması məsələsini həll etmişdi (10, s.7). Və eləcə də, iki yüz ilə yaxın bir müddət ərzində özünü milli musiqi aləti kimi təsdiqləmiş qarmon alətinə də ögey münasibət bəslənilməməli, bu alətin musiqi məktəblərində tədrisi azaldılmamalı və həm də qarmon alətində not saatlarının ikiyə çatdırılması vacibliyi də nəzərdən keçirilməlidir.

Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət Təhsili üzrə Elmi Metodiki Kabinetində çox böyük həcmli işlər həyata keçirilir. Son illərə qədər dərs keçmək üçün vəsaiti çatışmayan musiqi məktəbləri məhz bu kollektivin işi sayəsində kifayət qədər dərsliklərlə təmin ediliblər. Bir-birinin ardınca tar, qarmon, solfecio, bütün siniflər üçün musiqi ədəbiyyatı dərslikləri, Azərbaycan xalq musiqi yaradıcılığı, 1953-cü ildən bəri çap olunmayan "İbtidai musiqi nəzəriyyəsi" kitabları və s. işıq üzü görüb. Amma bu iş davam etdirilməlidir.

Və nə yaxşı ki, davam etdirilir də. Özü də təkcə bu istiqamətdə deyil, bütün istiqamətlərdə, kompleks halında yeniləşmə gedir. Bu yeniləşmə həm yeni dövrün, yeni zamanın tələbidirsə, həm də bu yeniliklərdən geri qalmaq istəməyən, əksinə, özü yenilik axtarışında olan başdan-başa yeniləşən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tələbidir.

Musiqi təhsili sisteminin yaxşılaşdırılması, təkmilləşdirilməsi sahəsində görülən tədbirlər musiqi mədəniyyətimizin inkişafına böyük xidmət göstərməlidir. Bu işin həyata keçirilməsində isə ən böyük vəzifə və məsuliyyət musiqi məktəblərinin müəllimlərinin üzərinə düşür. Bu sahədə isə vəziyyət ürəkaçan səviyyədən xeyli uzaqdır. Hazırda musiqi məktəblərində yüksək savada və təcrübəyə malik olan müəllimlərdən tutmuş, diplomlu savadsızlara və eləcə də, ibtidai musiqi təhsilli müəllimlərə qədər müxtəlif səviyyəli kadrlar fəaliyyət göstərir. Bu məsələdə kimsə kimsəni təqsirləndirməməlidir. Bu problem musiqi məktəblərindən qat-qat çox qayğı və diqqət göstərilən orta ümumtəhsil məktəblərində daha qlobal şəkildə özünü göstərir. Məzunların təyinatla yerlərə göndərilməsi dayandırılandan sonra məktəbləri (xüsusən dağ rayonlarındakı məktəbləri) ixtisaslı kadrlarla təmin etmək müşkülə çevrilib. Bir az imkanı olan müəllim kəndi tərk edib şəhərə köçür, məktəbin öz yetirmələri isə əksər hallarda kəndə qayıtmaqdansa şəhərdə qalıb yaşamağı ( ixtisası üzrə işləməsə də) üstün tutur. Təhsil Nazirliyi bu məsələni həll etmək ərəfəsindədir. Yeni kadrlar müəllim ehtiyac olan yerlərə əlavə imtiyazlarla göndərilir. Fikrimizcə, bu məsələ bizdə də bu cür həll edilməlidir. Lakin ali və orta ixtisas musiqi təhsili verən tədris müəssisələrinin Mədəniyyət və Turizm Nazirliyinin təhsil sisteminə daxil olmaması bu məsələni ləngidə bilər. Keçmiş Mədəniyyət naziri P.Bülbüloğlunun "İzvestiya" qəzetinə verdiyi müsahibədə müxbirin " Mədəniyyət Nazirliyinin ən çox nəyi çatmır?" sualına cavabı bu problemin aktuallığını bir daha göstərir: "...onun (Mədəniyyət Nazirliyinin- V. N.) özünün təhsil sistemi çatmır... Rusiyada butun ali yaradıcılıq məktəbləri Mədəniyyət Nazirliyinin ixtiyarındadır. Çox təəssüflər ki, bizdə nə vaxtsa Ali və Orta İxtisas Təhsili Nazirliyi yaradılarkən konservatoriya, incəsənət institutu və məktəbləri onun tərkibinə daxil edilmişdi. İndi bütün bunlar Təhsil Nazirliyinin tabeliyindədir. Bu, çox böyük əyintilərə gətirib çıxarır. Məsələn: tromboncalanlar, voltornaçalanlar və faqotçalanlar çatışmır, konservatoriya isə hər il 14-15 pianoçu buraxır və mənə deyir ki, onları işə düzəlt... Bütün respublikada 2 arfa var, onlar isə hər il mənə 5 arfaçalan verir..." (11, s.4).

İxtisası olmayan müəllimlərin işdən uzaqlaşdırılması

bir qədər yumşaq şəkildə və mərhələ ilə həyata keçirilməlidir. Belə olmasa bəzi məktəblər müəllim kadrlarının azlığı problemi ilə üzləşə bilər. Hər hansı səbəbdən təhsilini davam etdirə bilməyən çox istedadlı və səviyyəli müəllimlərin də taleyinə biganə qalmaq olmaz və çox yaxşı ki, nazirlik belə müəllimlərin attestasiya yolu ilə işləmələrini öz diqqətində saxlayır. Bu məsələ praktikada da özünü göstərib. Musiqi məktəblərinin təzə yarandığı illərdə onlarca "diplomsuz" müəllimlər dərs deyirdilər ki, onların təkcə adlarını çəkmək kifayət edər: Mirzə Muxtar, Bülbülcan, Mirzə Fərəc, Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, Zabul Qasım, Segah İslam, Məşədi Cəmil Əmirov, Kərbəlayı Lətif, Hüseynqulu Sarabski, Qurban Pirimov, Mirzə Mənsur Mənsurov, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Xan Şuşinski və s. (12, s.164).

Hazırda Mədəniyyət və Turizm Nazirliyində musiqi məktəblərinin işinin daha da yaxşılaşdırılması istiqamətində ardıcıl işlər aparılır. Nazirliyin aparatında indiyə qədər olmayan bir şöbə - elm və təhsil şöbəsi yaradılıb. Şöbənin yaradılması məktəblərlə aparılan işin səviyyəsini çox güman ki, yüksəldəcəkdir. Bundan əlavə Elmi-Metodiki Mərkəzdə iş qaynayır. Yay dövrü olmasına baxmayaraq orada işin sürəti azalmayıb və yeni tədris ilinə tam hasır olmaq üçün kabinetin əməkdaşları səylə çalışırlar. Əvvəlki illərdən fərqli olaraq jurnallar və kitablar dərslər başlanana qədər musiqi məktəblərinə çatdırılıb.

Bir maraqlı məsələyə də toxunmaq istəyirəm. Mədəniyyət və Turizm Nazirliyi rəhbərliyinin tövsiyəsi ilə Mədəniyyət təhsili üzrə Elmi-Metodik Mərkəzdə musiqi, incəsənət və rəssamlıq məktəblərinin 2007 - 2011-ci illər üçün müasir tələblərə uyğun dövlət inkişaf proqramı hazırlanır. Bu proqram 4 hissədən idarətdir. Buraya məktəblərin maddi-texniki bazasının yüksəldilməsi, onların musiqi alətləri ilə təmin olunmasından (mərkəzləşmiş qaydada) tutmuş təşkilati məsələlər və kadrlarla işə qədər ən müxtəlif və həlli vacib məsələlər daxil edilib. Bu proqramın qəbulu musiqi məktəblərinin işində yeni səhifələrin açılmasına səbəb olacaq. Eyni tipli musiqi məktəblərinin tikilməsi, təmirə ehtiyacı olan məktəblərin xüsusi hökumət proqramı ilə təmiri, yeni musiqi alətlərinin alınması və köhnələrinin bərpası, Şuşa İstehsalat Fabrikinin bərpasına nail olunması, müəllimlərin attestasiyasının keçirilməsi, səviyyəli, qabaqcıl müəllimlərin mükafatlandırılması və onların fəxri adlara təqdim edilməsi, müəllimlərə əmək haqqının faydalı iş əmsalına əsasən ödənilməsi, xüsusi istedadlı şagirdlərə əlavə dövlət qayğısı, nəşriyyatda musiqi şöbəsinin yaradılması, məktəblərdə bəzi ləğv edilmiş ştatların bərpası, musiqi alətlərini təmir edənlərin azlığı səbəbindən bu istiqamətdə kadrların hazırlanması, məktəblərə xaricdən səviyyəli mütəxəssislərin dəvət olunması, kadrların təyinatla yerlərə göndərilməsi işinin bərpa edilməsi və s. ən müxtəlif sahələr bu proqramda öz əksini tapmışdır.

Fikrimizcə, aşağıdakı məsələlərin də bu proqramda öz yerini tapması yalnız işimizin xeyrinə olardı:

1. Orta məktəblərdəki kimi dərsliklərin pulsuz verilməsi. (Bu o qədər də çox vəsait tələb eləmir).
2. İlkin mərhələdə "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı ilə H.Əliyev fondu hesabına musiqi məktəblərinin tikilməsinin təmin olunması.
3. Şagirdlərin bilik səviyyəsini bir-birindən fərqləndirmək üçün onlara fərqli şəhadətnamələrin və ya döş nişanlarının verilməsi.
4. Mətbuatda qabaqcıl müəllimlərin iş təcrübələrinin yayılması.
5. İxtisaslı müəllimlərin ucqar məktəblərə cəlb edilməsi üçün onlara əlavə təminat və imtiyazların verilməsi və s.

Biz bu yazımızda təhsil sisteminin bir mərhələsinə-ibtidai təhsil haqqında problemlərə toxunduq. Görülən işləri araşdırdıq, qarşıda duran vəzifələri sadaladıq. Gələcək yazılarda təhsilin daha yüksək mərhələləri barəsində danışacaq, orada olan vəziyyəti araşdırmağa çalışacağıq.

**Vasif NOVRUZOV,**
***Yardımlı rayon uşaq musiqi məktəbinin direktoru***

## Ədəbiyyat

1. ASE, VII c.,Bakı, 1983.
2. M.Aslanlı. Fiziki mədəniyyət və mənəvi kamillik. Bakı, Maarif, 1993.
3. B.Qurbanov. Mənəvi saflıq dünyası. Bakı, 1989.
4. Mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunu. "Mədəniyyət" qəzeti, 13 may 1998-ci il, №4 (154).
5. Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin əsasnaməsi. Bakı, 2003.
6. B.Qurbanov. Musiqinin bədii-estetik məsələləri. Bakı, 2000.
7. Mədəniyyət statistik məcmuə. Bakı, 2005.
8. ASE, VI c., Bakı, 1982.
9. Uşaq musiqi məktəbləri (incəsənət məktəblərinin musiqi şöbələri) üçün tədris planı. Bakı, 1991.
10. Ü.Hacıbəyov. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, Yazıçı, 1985.
11. Mədəni-maarif jurnalı, 2002, № 8/ 9.
12. F.Şuşinski. Azərbaycan xalq musiqiçiləri. Bakı, Yazıçı, 1985.